**UOT 7**
**https://doi.org/10.59849/2218-4783.2025.1.304**

**FATMA ŞAHBAZOVA**

# HÜSEYNQULU ƏLİYEVİN PORTRET ƏSƏRLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Naxçıvanın görkəmli rəssamlarından biri olan Hüseynqulu Əliyevin qırx ildən çox bir dövrü əhatə edən yaradıcılığı mövzu və janr müxtəlifliyi ilə diqqət çəkir. Bu müxtəlifliklə Naxçıvan ünvanlı əsərlərin çoxluq təşkil etməsini yəqin ki, təbii saymaq olar. Xalq rəssamının bədii obrazlarla, tanınmış insanlarla yanaşı onun sevgi və hörmətlə yaratdığı ailə tabloları da yer alır. "Ümummilli lider", "Hüseyn Cavidin kompozisiyalı obrazı", "Midhət", "Cəlil Məmmədquluzadə", "Cəlil Məmmədquluzadə və oğlu Ənvər", "Əzim Əzimzadə", "Atam və anam", "Zeynəb bacım", "Vəli bibioğlu", "Mənim Leylam" və s. göstərmək olar.*

**Açar sözlər:** *Hüseynqulu Əliyev, portret, Naxçıvan, rəssam.*

**Giriş.** Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan təsviri sənətinin ötən əsrin sonlarında, xüsusilə də ölkənin müstəqillik qazanmasından sonrakı illərə təsadüf edən inkişafında Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan yaradıcıların da duyulası xidmətləri olmuşdur. Bu mənada təsviri və dekorativ-tətbiqi sənət sahələrində fəaliyyət göstərən həmin rəssam və heykəltəraşların yaradıcılıqlarının tədqiqi aktuallıq kəsb edir. Belə sənətkarlardan biri də Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyevdir. Qənaətimizcə, təsviri və teatr-dekorasiya sənəti sahələrində davamlı olaraq çalışmaqla, həm də Azərbaycan Rəssamlar və Teatr Xadimləri ittifaqlarının üzvü olan Hüseynqulu Əliyev çoxşaxəli yaradıcılığı ilə bu mənəvi haqqı qazanmışdır.

Onun təsviri sənətə gəlişini və bu sahədə xüsusi ixtisas təhsili almasını xronoloji ardıcıllıqla izləməli olsaq, onda ilk olaraq keçmiş SSRİ məkanında çox məşhur olan "Əzimzadə məktəbi"ndə - Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1971-1975) təhsil almışdır. Bundan sonra təhsilini Bakıdakı Mirzə ağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnistitunun (indiki ADMİU) Rəssamlıq fakültəsində (1977-1982) davam etdirmişdir. Orta və ali təhsil illərində Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətinin görkəmli nümayəndələri hesab olunan Lətif Kərimov, Toğrul Nərimanbəyov, Tokay Məmmədov, Sabir Şıxlı, Nurhüseyn Mahmudov və başqalarından dərs alan gənc rəssam, onların məşğul olduqları müxtəlif sahələrin bədii-texniki xüsusiyyətlərinə yiyələnməklə, az sonra başlanacaq müstəqil yaradıcılığı üçün yüksək icra sənətkarlığının etibarlı təməlini qoya bilmişdir.

**Rəssamın portret tabloları.** Bu günə kimi öz doğma yurdunun təbiətini, insanlarını, güllərini, çiçəklərini, qəhrəmanlıq səhifələrini böyük sevgi ilə vəsf edən sənətkarın hər bir tablosu yurd sevgisinin bir parçasıdır [3].

Sadə əmək adamı olan "Əli ustanın portreti" onun peşə-əmək mühiti ilə birlikdə təqdim olunur. Hətta ailə silsiləsindən olan "Həyat yoldaşım", "Mənim Leylam", "Qızımın portreti" rəsmlərində də səlis kompozisiya quruluşu nümayiş etdirmişdir. Maraqlıdır ki, Hüseynqulu Əliyev özünün avtoportretlərini də müəyyən kompozisiya çərçivəsində gerçəkləşdirmişdir. Biz həmin avtoportretlərdə xalq rəssamını ailə üzvləri, nəvələri və sənət dostları ilə bir yerdə görürük. Kompozisiyalı rəsm əsərləri yaratmaq, portret rəsmlərində də səciyyəvi kompozisiya detalları əks etdirmək rəssamın təkcə həyatı, təbiəti və insanı təqdim etməklə qalmayıb, həm də hər dəfə yeni bir fikir ifadə etmək istedadını da nümayiş etdirir. Bu mənada xalq rəssamı Hüseynqulu Əliyevin təsviri sənət əsərləri, xüsusən də portret işləri obrazın fərqli görünüşü ilə yanaşı, həm də onu tamamlayan fikir və mətləbləri, detalları və ideyaları canlandırır.

Xalq rəssamının Azərbaycan romantizminin banisi Hüseyn Cavidə həsr etdiyi rəsm əsərini "Hüseyn Cavidin kompozisiyalı obrazı" adlandırması onun özünün də portret janrlı əsərlərinin kompozisiya biçimli yaratdığının fərqində olduğunu göstərir. Fikrimizcə, müxtəlif janrlarda çəkilmiş rəsm əsərlərində kompozisiya yaratmaq istiqaməti Hüseynqulu Əliyev sənətinin fərdi özünə-

məxsusluğunun səciyyəvi xüsusiyyətlərindən biridir. Naxçıvanda yaşayıb-yaradan rəssamların yaradıcılığında da, Cavid obrazı özünəməxsus yer tutur. Belə ki, xalq rəssamı Hüseynqulu Əliyevin yağlı boya ilə kətan üzərində yaratdığı Hüseyn Cavid əsərində müəllif görkəmli dramaturqu əlində pensnesi (gözlüyü) ayaqüstə dayanmış vəziyyətdə təsvir edir ki, bu da monumentallığı, bütövlüyü, şairin həyatda əyilməz və uzaqgörənliyini izah edir. Rəssam əsərdə böyük şairin daxili xarakterini özünəməxsus ustalıqla təsvir edib [1, s. 7].

Cavidin rəssam tərəfindən çəkilən bu portreti bədii həllinə görə maraq doğurur. Belə ki, böyük ədibin təzadlı ömür yoluna “işıq” salan portretində kolorit obrazın əhval-ruhiyyəsinə uyğun seçilib. Əsərdə Cavidin çatılmış qaşları, üzünün ifadəsi, masaya söykənən əlin gərgin vəziyyəti dövrün ictimai-siyasi ədalətsizliyindən yaranan daxili narahatlığını ifadə edir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində saxlanılan “Midhət”, “C.Məmmədquluzadə”, “C.Məmmədquluzadə və oğlu Ənvər”, “Salman Mümtaz”, “C.Məmmədquluzadə ailə üzvləri ilə”, “Əhməd Cavad”, “Əzim Əzimzadə”, “Y.Çəmənzəminli” kimi çoxsaylı əsərləri rəssam-heykəltəraşın yaradıcılıq axtarışlarının gözəl bəhrəsi kimi diqqəti cəlb edir. Bu portretlərdə rəssam obrazların daxili aləmini göstərmək üçün təsvir etdiyi şəxsiyyətləri səciyyələndirən bir sıra cəhətləri xüsusi ilə vurğulamışdır. Bu əsərlərdə obrazların psixoloji dərinliyi, sadəliyi, zahiri cizgilərin daxili aləmin güclü şərhi ilə üzvü bağlılığı aydın hiss olunur. Professor Abbas Zamanov, Əziz Şərif, və Məmmədcəfər Cəfərov, şair Məmməd Araz və Xəlil Rzanın qrafik texnikada işlənən və muzeydə nümayiş etdirilən portretlərindən. Eləcə də şair “Almaz İldırımın dünyası” qrafik silsiləsindən məlum olur ki, rəssam təsviri sənətin bu sahəsinin mürəkkəb bədii-texniki tələblərinə, cizgi qanunlarına dərindən bələd olmuşdur.

Azərbaycan rəngkarlığında realist rəssamlığın banisi Bəhruz bəy Kəngərlinin Naxçıvan şəhərindəki qəbirüstü abidəsində də heykəltəraşın tamaşaçıya dediyi fikir sadə və yığcamdır. Belə ki, o, plastika nümunəsində xarakterik cizgilərlə rəssamın sürətini yarada bilmişdir.

Dünyaşöhrətli dövlət və siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nurlu siması rəssam-heykəltəraşın yaradıcılığından qırmızı xətt kimi gəlib keçir.

O, istər rəssamlıq əsərlərində, istərsə də müxtəlif materiallardan hazırladığı barelyef və büstlərdə təkcə portret oxşarlığına nail olmamış, eyni zamanda Ulu Öndərin mənəvi aləmini də yaddaqalan biçimdə təqdim edə bilmişdir.

Xalq rəssamının mahir fırçası ilə yaradılan “Ümummilli lider” portretində görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini dünyada tanıtmaq uğrunda apardığı mübarizə istedadla seçilmiş detallarla ifadə olunmuşdur. Başı üzərində dalğalanan dövlət bayrağımızın və addımlamaqda olan Yer kürəsinin təsviri ümummilli liderin mübariz ruhunu və dünya şöhrətini çox dolğun şəkildə mənalandırır. Xalq rəssamı Hüseynqulu Əliyev ulu öndərin istər kompozisiya, istərsə də üz cizgilərinin ifadəli olması baxımından maraqlı obrazlarını yaratmışdır. Onun yaratdığı obrazlar təbii, həyati xarakter daşımaqla yanaşı, həm də lider barəsində tamaşaçılarda unudulmaz, parlaq təəssürat formalaşdırır. Ərtəgin Salamzadə və Xəzər Zeynalovun həmmüəllif olduğu “Təsviri sənətdə Heydər Əliyev obrazı” adlı monoqrafiyada rəssamın əsərlərindən söz açılıb və təhlil edilib.

Rəssamın ulu öndər Heydər Əliyevi sanki dünyanın üstündə təsvir etdiyi kompozisiya mükəmməl tərzdə işlənməsi və rəmzi məna daşıması ilə diqqəti cəlb edir. Əsərin kompozisiya əsasında ulu öndərin yenilməz sürəti dayanır. Təbii ki, bu cəhət rəmzi xarakter daşıyır; bununla da Heydər Əliyevin fenomenal, dünya səviyyəli siyasi lider olması bədii formada öz ifadəsini tapır. Əsərdə simvolik xarakterli başqa bir detal da vardır. Bu, Heydər Əliyevin insanları salamlayaraq yuxarı qaldırdığı sağ əlindən sanki qalxıb ucalan üçrəngli Azərbaycan bayrağıdır. Belə bir təsəvvür yaranır ki, Heydər Əliyev Azərbaycan bayrağını planetin başı üzərində dalğalandırır. Bu cəhətin özü də rəmzi məzmuna malikdir; belə ki, məhz ulu öndərin müdrik siyasəti nəticəsində Azərbaycan dünya birliyinin nüfuzlu təmsilçisinə çevrilmiş, Azərbaycan həqiqətləri bütün dünyanın diqqətinə çatdırılmışdır. Əsərin ideya əsasında məhz bu dəst-xətt dayanır. Vaxtilə Heydər Əliyev deyirdi: “Azərbaycan dünyaya günəş ki-

mi doğacaq”. Əsərə baxdıqca ulu öndərin böyük vüqarla, şəxsiyyətinə xas azmanlıqla dünyanın üstündən təmkinlə addımladığını gördükcə onun sanki bu əminliyini həyata keçirməsinin şahidi oluruq.

Əsərin kolorit əsasını göy rəngin müxtəlif çalarları təşkil edir. Heydər Əliyevin göy kostyumu mavi səmanın fonunda aydın nəzərə çarpır. Onun qırmızı qalstuku, eləcə də üçrəngli bayrağın orta, qırmızı hissəsi soyuq göy rənglə gözə xoş gələn ahəngdarlıq yaradır. Realizmlə simvolizmin qovsağında qərarlaşan bu tablonu Heydər Əliyevin boyaboy işlənmiş portretləri arasında ən məzmunlu əsərlərdən biri kimi hesab edə bilərik (şəkil 1.2.1).



**Şəkil 1.2.1.** “Ümummilli lider”, 2014, k.y.b., Naxçıvan şəhəri, şəxsi kolleksiya.

Hüseynqulu Əliyevin Ulu öndərə həsr etdiyi başqa bir əsər “Sərgidə” adlanır. Burada Heydər Əliyevin və Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun Naxçıvanda, sərgidə olmaları öz əksini tapır. Qoşa portret kimi səciyyələndirilən bu tabloda sərgi ilə tanışlığın canlı, səmimi bir epizodu təsvir edilib. Əsərin kompozisiyası yaxın planda, xətti formada qurulmuşdur. Ön və iri planda işlənmiş hər iki surətin – Heydər Əliyevin və Vasif Talıbovun diqqəti baxdıqları kompozisiyaya yönəlmişdir. Tamaşaçı bu kompozisiyanı görmür, lakin hər iki obrazın məmnun, bir qədər gülümsər simalarından əsərin onlara xoş təsir bağışladığı anlaşılır. Maraqlı olan cəhət arxa planda Azərbaycan xəritəsini əks etdirən şəkil – eksponatın yerləşməsidir. Sənətşünas Səyyarə Sadıqovanın qeyd etdiyi kimi “Sərgidə” əsəri rəmzi xarakter daşıyan xüsusiyyətlərə malikdir [2].

Üçrəngli bayrağın fonunda verilmiş, Azərbaycan xəritəsini bu rəmziliyin nümunəsi kimi dəyərləndirmək olar. Tablonun kolorit həlli əsasən sarı və qəhvəyi tonlardan ibarətdir. Onun kompo-

zisiyası da realist məkan həllinə malikdir. Hər iki baxımdan “Sərgidə” tablosu ulu öndərin planet üzərindəki təsvirindən xeyli fərqlənir [5, s. 81-85].

Dahi şəxsiyyətin obraz yaradıcılığına çoxsaylı rəssamlar tərəfindən dəfələrlə müraciət olunmuşdur. Hər bir rəssamın özünəməxsusluğu, fərdi yaradıcılıq üslubu hər nə qədər özünü göstərsə də, bütün bu portret nümunələrini birləşdirən yeganə cəhət vardır ki, o da xalqımızın qürur mənbəyi olan böyük insanın vətən sevgisinin, qüdrətinin öz əksini tapmasıdır. Məsələn, Xalq rəssamı Sakit Məmmədovun böyük siyasi xadim Heydər Əliyevin tərənnümünə həsr edilmiş əsərini nümunə göstərərək qeyd edə bilərik ki, burada interyerdə verilmiş obraz təntənəli məkanda öz sadəliyində uzaqlara dalmış nəzərləri ilə xalqına olan qayğı və sevgisini, böyük məhəbbətini dərin baxışlarında dolğun şəkildə əks etdirməkdədir. Yaxud görkəmli sənətkar, SSRİ xalq rəssamı Tahir Salahovun 1984-cü ildə yaratdığı rəngkarlıq əsərində ulu öndərin qəlbində gizlənmiş böyük, əvəzsiz xalq sevgisinin izləyicisinə dikilmiş nəzərlərində parlaq ifadəsi özünü göstərməkdədir.

Hüseynqulu Əliyevin yaradıcılığına məxsus qeyd edilən əsərdə də bu sevgi və qayğı ilə yanaşı, gələcəyə inama baxan əzəmətli simanın bədii əksi ilə rastlaşırıq. Əsasən göy və mavi kimi tonlarda həll edilmiş əsərdə Azərbaycan bayrağını qürurla bütün dünya üzərində dalğalandıran dahi şəxsiyyətin obrazı eyni zamanda rəssamın şəxsi münasibətini, sonsuz hörmət və ehtiramını da aydın şəkildə əks etdirir [4].

Ümumiyyətlə, Hüseynqulu Əliyevin portret janrında yaratdığı əsərlərində dərin psixoloji yanaşmasının nəticəsi olaraq, obraza olan şəxsi münasibətinin özünü aydın şəkildə büruzə verdiyinin şahidi oluruq.

Hüseynqulu Əliyevin portret janrında yaratdığı əsərlərində tanınmış şəxsiyyətlərin siyasi, ictimai və yaxud yaradıcı fəaliyyətini əsaslandıran cizgi ifadələrlə yanaşı, onların xarakterikliyini və özünəməxsusluğunu önə çəkən psixoloji yanaşmaların da şahidi oluruq. Misal olaraq, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş ziyalı, “Şərqi-rus” qəzetinin redaktoru Məhəmmədağa Şahtaxtılının 2002-ci ildə yaradılan və Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində qorunan portretini göstərmək olar. Köməkçi, əlavə detallara yer verməyən rəssam əsərdə izləyicisinə təvazökar və nikbin nəzərləri ilə baxan ziyalının real cizgilərini dolğun şəkildə canlandırmağı bacarmışdır. Qəhvəyi tonların üstünlük təşkil etdiyi tabloda təzad təşkil edən çalarların da yer alması portretin nurlu çöhrəsini sanki daha da işıqlandırmışdır. Fon olaraq saya qəhvəyi rəngin isti çalarının üzərində verilmiş obraz təsviri tünd pencək və açıq ağ köynəklə əks olunmaqla rəssamın məqsədindən çıxış edir. Ağarmış saqqal, səliqə ilə yana daranmış saçlar, cizgilərin təvazökarlığı, səmimiyyəti və yüksək ziyalılığı təqdim edən bədii əksi Məhəmmədağa Şahtağlının yaddaqalan obrazı ilə izləyicinin marağına hakim kəsilməkdədir.

Yaxud Azərbaycanın tanınmış maarifçisi, pedaqoq, şair, publisist, böyük mütəfəkkir Məhəmmədtağı Sidqiyə həsr olunmuş uğurlu portreti misal göstərmək olar. Rəssam, daxilində xalqına olan sonsuz sevgini, məhəbbəti gəzdirən bu dolğun obrazın bədii ifadəsində onun bütün səmimiyyətini tamaşaçısına təqdim etməyi bacarmışdır. XX əsrin əvvəllərinə aid ziyalı insanlara məxsus geyim formasının uyğun detallarının təqdim edilməsi əsərin doğma və səmimi ruhunu hiss etdirməkdədir. Başına buxara papaq, əynində boğazı düz olan, önü bağlı pencək geyinmiş Məhəmməd Tağı Sidqinin bədii obrazının canlandırılmasında rəssam onun nəzərlərini bir qədər yana naməlum uzaqlara baxaraq əks etdirməyi məqsədəuyğun hesab etmişdir. Cizgilərdə narahat, bir qədər də kədərli ifadələrin əksində xalqının dərdini şəxsi dərdi kimi sinəsində daşıyan bir ziyalının bədii əksini canlandırmaqdadır. Bu həssaslığın daha təsirli formada əks olunmasında rəssam yaşılı-sarı çalarda olan arxa fonu şamın zərif işığı ilə təsvir etmişdir. Sağ hissədən verilmiş şam işığı yuxarıya doğru tablonu işıqlandıraraq təsvir edilmiş xarakterik simaya uyğun olaraq əsərin ruhuna hakim kəsilmiş lirik-romantik təəssüratı meydana çıxardır (şəkil 1.2.10, 1.2.11).



**Şəkil 1.2.10.** "Məhəmmədağa Şahtaxtılı", k.y.b., Naxçıvan şəhəri,
N.Gəncəvi adına Ədəbiyyat Muzeyi, 2002.



**Şəkil 1.2.11.** "Məhəmmədtağı Sidqi", k.y.b., Naxçıvan şəhəri,
N.Gəncəvi adına Ədəbiyyat Muzeyi, 2004.

Müasirlərinin portret tərənnümünə də yer verən rəssam hər bir xarakterin yaradılmasında tipoloji xarakterik cizgilərin dəqiq ifadəsinə məharətlə nail ola bilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin 2009-cu ildə yaradılmış rəngkarlıq nümunəsində qeyd olunanların təsdiqini görürük. Görkəmli alimin portret təsvirində rəssam onun ictimai fəaliyyətini işıqlandıran kabinet daxilində, kreslo arxasında, üzünü sanki dinlədiyi insanlara tərəf tutmuş şəkildə əks etdirmişdir. Burada digər elementlərin də məqsədyönlü həllində məkan və obraz sintezindən məharətlə istifadə edərək obrazın həyati fəaliyyətini uğurla təqdim etməyi bacaran rəssam, arxa divarda xalqımızın böyük şəxsiyyətləri Heydər Əliyev və İlham Əliyevin birgə portreti vermişdir. Sol hissədə dövlətə məxsus telefon, kiçik heykəl, sağ hissədə isə üzərində dövlətimiz bayrağı olan kitabın təsviri verilmişdir. Mərkəzdə alimin bədii ifadəsində əsasən ciddiyyətin irəli çəkilməsi obrazın ictimai fəaliyyətini, onun öz işinə olan dərin məsuliyyətini dolğun formada tamaşaçısına təqdim edir. Əyninə geydiyi mavi-boz rəngli səliqəli kostyum əsərin əsasən mavi tonların üstünlük təşkil etdiyi koloritində ümumi harmoniyanın əldə olunmasında əsas rol oynayır. (şəkil 1.2.12).



**Şəkil 1.2.12.** “AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli”, k.y.b., şəxsi kolleksiya, 2009.

Hüseynqulu Əliyevin bədii obrazlara, tanınmış insanlara həsr edilmiş portretləri ilə yanaşı, onun sevgi və hörmətlə yaratdığı ailə tabloları da yer alır. Bu mənada onun ərsəyə gətirdiyi “Atam və anam” (1983) adlı rəngkarlıq əsəri özünün bədii həllinin səmimiyyəti ilə diqqəti cəlb edir. Burada rəssamın kətan üzərinə hopdurduğu böyük sevginin izləri hiss edilməkdədir. Fonun daha tünd olan səthində parlaq işıq nüansı obrazların tam arxa hissəsində verilməklə onların müdrik çöhrəsini sanki xüsusi olaraq nura qərq etmişdir. Sənətkar valideynlərinin hər ikisinin real portret tərənnümünü verməklə, onların milli dəyərlərə məxsus element təsvirlərini xüsusi olaraq qeyd etməklə əsərin mənəvi dəyərini artırmışdır. Bu ilk olaraq geyim forması ilə öz təsdiqini tapır. Atanın başında qara buxara papaq, pencəyin altından boğazı bir qədər olan qəhvəyi rəngli köynək verilmişdir. Sənətkar anasını başında ağ kəlağayı ilə canlandırmaqla həm reallığı, həm də milli dəyərləri önə çəkməyə nail ola bilmişdir. Ananın əyindəki qırmızı köynək rəng təzadı yaradaraq harmonik ifadənin özünü daha qabarıq büruzə verməsinə imkan yaradır. Ağ, qırmızı, tünd qəhvəyi və qara kimi rəng dəyərlərinin uğurlu əlaqələndirilməsi bir daha portret qəhrəmanlarının xüsusi olaraq nəzəri cəlb etməsinə şərait yaradır (şəkil 1.2.20).



**Şəkil 1.2.20.** “Atam və anam”, k.y.b., Naxçıvan şəhəri, şəxsi kolleksiya, 1983.

“Zeynəb bacım” (1983) adlı əsərdə isə obraz və məkan təsvirində milli elementlərin bədii həllində kəskin təzad yaradan rənglərin istifadəsi olmadan belə dinamizmin meydana çıxarmasının, əsərin maraq dairəsinə heç bir xələl gətirilmədən, əksinə olaraq onun dəyərinin önə çəkildiyinin şahidi oluruq. Rəssam buna ağ-qara və bozun açıq və tünd çalarlarının, işıq və kölgə münasibətlərinin ustalıqla istifadəsi sayəsində nail olmağı bacarmışdır. Tablo ev şəraitini əks etdirir. Arxa divarın tünd boz çalarları üzərinə atılmış işıq ləkələri tablonun solğun görüntü yaratmasına imkan verməməkdədir. Lakin ağ çalarda, üzərində təsvirlərin verildiyi divar tablosu bütün otağı sanki işıqlandıraraq təzad yaratmaqla məkan dinamikasını təqdim edir. Divarın yarısına qədər olan qədim şkafın üzərinə qoyulmuş mis kasa milliliyi ənənəviliyi ən azı qadının başından çiyinlərinin üzərinə kimi gələn bəyaz şal əsərdəki öz dəyərini sübut etməkdədir. Ayaq üstə dayanan obraz əllərini bir-birinin üzərində çarpazlayaraq sakit şəkildə yana doğru baxmaqdadır. Sadə Azərbaycan qadının simasını canlandıran rəssamın bacısının portretində bir səmimiyyət, nəvaziş izləri sifət cizgilərində özünü aydın şəkildə büruzə verir (şəkil 1.2.21).



**Şəkil 1.2.21.** “Zeynəb bacım”, Naxçıvan şəhəri, şəxsi kolleksiya, 1983.

Eyni fikirləri 1983-cü ilə aid kətan üzərində yağlı boya ilə işlənmiş “Vəli bibioğlu” adlı rəngkarlıq əsəri haqqında da qeyd etmək olar. Əsərin rəngkarlıq formatında yerinə yetirilməsinə baxmayaraq rəssamın burada sadəcə ağ və qara ziddiyyətindən istifadəsi maraq doğurur. Çünki obrazın xarakterinə məxsus kəskinliyin, ciddiyyətin, sərtliyin verilməsində məhz iki tərz rəng dəyərinin qarşılaşdırılması da məhz işıq, kölgə, ləkə, ştrix kimi nüansların ustalıqla yerinə yetirilməsi əsas olaraq nəzəri cəlb edir. Başında buxara papaq, düz boğazlı köynəyin üzərindən geyinmiş ənənəvi pencək xarakterin önə çıxarılmasında öz əhəmiyyətini göstərir. Obraz baxışları bir qədər yerə zillənmiş formada əks etdirilmişdir. Dərin qırışların olduğu sifət cizgilərində xarakterik tipə məxsus kəskin bir ifadə özünü göstərir. Aşağıya doğru burulmuş bığlar, yuxarı qalxan qaşlar və s. bu ciddiyyəti daha qabarıq formada izləyicisinə təqdim etməkdədir. Qıyılan gözlərin ifadəsində daxili aləminə qapılan obrazın dərin düşüncəli siması özünü göstərir. Lakin bununla rəssam kədəri, pessimizmi deyil, xaraktерə məxsus qayğıkeşliyi əsas olaraq canlandırmağı qarşısına məqsəd qoyması və buna uğurla nail ola bilməsi nəzəri cəlb edir (şəkil 1.2.22).



**Şəkil 1.2.22.** "Vəli bibioğlu", k.y.b., şəxsi kolleksiya, 1983.

Hüseynqulu Əliyevin həyatdan vaxtsız köçmüş qardaşına həsr edilən portretində (2005) sadəcə obraz tərənnümünün deyil, sənətkarın sevgi dolu hisslərinin, həsrətinin də şahidi oluruq. Arxanın mavi tonu üzərindən verilmiş bəyaz işıq obrazın tərənnümündə onun işıqlı simasını daha aydın ifadə etməyə imkan yaradır. Alın hissədən seyrəkləşmiş saçlar, yan hissələrdə ağaran tellərin verilməsi, adi duruş formasında olan obrazın xarakterikliyini, onun daxili dünyasını meydana çıxarmaqdadır. Ağ sadə köynək mavi fonla uğurla əlaqələndirilərək təzadı, kəskinliyi deyil, lirizmi qabartmağa meyllənmişdir. Bir qədər qırışan göz kənarları nəzərlərin dərin ifadəsini daha da qabartmaqdadır. Obraz bir qədər yana doğru zillənmiş baxışları ilə sanki bu həyatdan gedərək yerində buraxdığı nisgilin izlərini özündə əks etdirir ki, burada da sənətkar münasibətinin işartıları özünü aydın şəkildə büruzə verməkdədir. Alın hissədə verilmiş işıq, sağ hissədən düşən parıltı portret təsvirin donmuş ifadəsini aradan qaldıraraq onun dəyərinə rəng qatmışdır. Zəif işıq tonu sağ yuxarı hissədən sol qismin aşağısına doğru gələrək onun həssaslığını artırır (şəkil 1.2.23).



**Şəkil 1.2.23.** "Qardaşımın portreti", k.y.b., şəxsi kolleksiya, 2005.

“Qızımın portreti” (2011) rəngkarlıq əsərində obraza yaxından bələd olduğu xarakterik cizgiləri yaratmaqla yanaşı, eyni zamanda ona şəxsi sevgisi çərçivəsində həll etmişdir. Rəssamın bu əsərdə əks etdirdiyi hisslərin, həssaslığın verilməsini ustalıq nümayiş etdirmə səriştəsi kimi qiymətləndirmək olar [41, s. 249]. Məsələn, qeyd edilən tabloda portret əlində rəngarəng çiçəklər ilə əks olunmuşdur. Burada həm də qadın zərifliyi özünü xüsusi olaraq göstərməkdədir. Tünd göy rəngdə verilmiş arxa fonda yenə də parlaq ləkələrin istifadəsi bütün kompozisiyadakı əhəmiyyətini təsdiqləyir. Saçları çiyninin üzərinədək gələn qız qulaqlarında və boynundakı incə zinət əşyaları ilə zəriflik və estetikliyi birləşdirir. Tünd qırmızı libasın üzərindən atılmış göy rəngli şərf təzad yaratmaqla yanaşı, eyni zamanda çiçəklərin rənglərində harmoniya yaradaraq tablodakı lirizmi qabardır. Tünd rənglərin qarşılaşdırılmasında işıq ləkələrinin istifadəsi onlar arasında yaranmış təzadı meydana çıxarır və əsərin dəyərini artırmış olur. Nurlu çöhrəsi ilə diqqəti çəkən obrazın ifadəsində isə bir qədər ciddi xarakterə məxsus daxili aləmin parlaq ifadəsi ilə qarşılaşırıq. Burada yenə də sənətkarın dəqiq psixoloji yanaşması sayəsində qəhrəmanının daxili aləminin məharətlə üzə çıxarılmasına şahidlik edirik (şəkil 1.2.24).



**Şəkil 1.2.24. “**Qızımın portreti”.

“Mənim Leylam” (2009) adlı rəssamın nəvəsinə həsr edilmiş portret tərənnümündə onun yasəmənlərin, yaşıllığın, açılan çiçəklərin əhatəsində verilməsi ilə sənətkar burada uşaq dünyasına malik saflığın, paklığın bədii həllinə çalışmışdır. Şüşə parlaqlığı kimi perspektivə doğru uzanan arxa plan qeyd olunanları bir daha təsdiqləyir. Kiçik qızcığazın ağ köynəkdə verilməsi çiçəkləri parlaq, əlvan rəngləri ilə təzad təşkil etdiyi halda, digər tərəfdən də saflığın qabardılmasına imkan yaradır. Tablonun sağ hissəsində əsasən yaşıl tonların üstünlüyü, sol hissənin yasəməni çiçək rəngləri ilə təzad yaratmaqla obrazın daha maraqla izlənməsində xüsusi rol oynayır. Ön hissədə verilmiş iri yaşıl yarpaqların arxasından boylanan obrazın nəzərləri yana doğru zillənməklə onun öz dünyasında olduğu və rəssamın məhz bu anı yaxalayaraq onu kətana köçürməsi əsərin səmimiyyətini, təbiiliyini və canlılığını ortaya çıxardır. Təsvirlər sement döşəmənin üzərində tünd və açıq ləkələrin verilməsi ilə tabloda bir dinamizm yaratmaqla tamaşaçısının diqqətini özünə cəlb edir. Əsərdə işıq və kölgə oyunları, kiçik qızcığazın sifət cizgilərini nurlandıran parlaqlıq tablonun ruhunda hökm sürən ruh yüksəkliyini, optimizmi tamaşaçısına da hiss etdirir (şəkil 1.2.25).



**Şəkil 1.2.25.** "Mənim Leylam", k.y.b., Naxçıvan şəhəri, şəxsi kolleksiya, 2009.

Eyni fikirləri Hüseynqulu Əliyevin həyat yoldaşına həsr edilmiş portret (2014) nümunəsi haqqında da söyləmək olar. Təbiət motivləri arasında verilmiş qadın obrazı digər əsərdən fərqli olaraq günəş şüasının təsirindən qıyılmış baxışları ilə qarşıya baxır. Meyvəli bağçada həll edilmiş obraz yaşıllığın, yaşılı-sarı meyvələrin fonunda ağ və mavi çalarda olan libası ilə təzad yaradaraq portretin diqqəti cəlb etməsinə imkan verir. Bir əlində qırmızı çiçək tutan qadının simasındakı təvazökarlıq, səmimiyyət böyük sevgi ilə fırçaya alınmışdır. Arxaya səliqə ilə daranmış qısa qara saçlar nurlu çöhrənin parlaq ifadəsini daha da aydın şəkildə ifadə edir. Boynunda verilən ağ mirvarilər bu həssaslığı daha da artırmaqdadır. Rəssamın kiçik bir nüansla əsərə bəxş etdiyi böyük təsirlərin usta tərənnümü məhz bu tipli nüanslarla öz təsdiqini tapır. Məsələn, qeyd etdiyimiz qadının əlində tutduğu kiçik bir qırmızı çiçəyin verilməsi tablonun heç bir hissəsində iştirak etməyən bu rəngin ölçüsündən asılı olmayaraq yaratdığı təzadla yanaşı, eyni səviyyədə onun sevgini, məhəbbəti də tabloda ifadə etdiyini qeyd etmək mümkündür (şəkil 1.2.26).



**Şəkil 1.2.26.** "Həyat yoldaşım", k.y.b., Naxçıvan şəhəri, şəxsi kolleksiya, 2014.

## Nəticə

1. Rəssam rəngkarlıq və qrafika sahəsində yaratdığı portretlərin bədii improvizələrlə gerçəkləşməsi müəyyən olunmuşdur.

2. Müəllif portretlərinin təsvirində icra sənətkarlığının yüksəlişi müşahidə edilmişdir.
3. Portretlərdə ikonoqrafik əlamətlərlə yanaşı, mənəvi-psixoloji yaşantıların bədiiləşdirilməsi aparıcı estetik yük daşıyıcısı kimi çıxış etmişdir.

## ƏDƏBİYYAT

1. Axundov B. Cavid obrazı milli təsviri və tətbiqi sənətimizdə. "525-ci qəzet", 2010, 21 aprel, 7 s.
2. Əliyev Z. Bəhruz bəy Kəngərlinin davamçıları // canveten.az/az/news/id 2542.
3. Quliyeva F. Yaradıcılığının əsas mövzusu mənim Naxçıvanım olan rəssam // Mədəniyyət, 2019, 5 fevral.
4. Nəcəfov M. Yaradıcılıq yollarında. "Ədəbiyyat və incəsənət" qəz., 1978, 4 noyabr, 5 s.
5. Sovet Azərbaycan İncəsənəti. Təsviri sənət (1959-1980). Bakı: ADK, 1986, 115 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: fatma_sahbazova@hotmail.com***

**Fatma Shahbazova**

## ARTISTIC CHARACTERISTICS OF PORTRAIT PAINTINGS BY HUSSEINGULU ALIYEV

The article focuses on Husseingulu Aliyev's work, which spans a period of more than forty years and is diverse in themes and genres. Of course, it is natural that the majority of this diversity is made up of works dedicated to Nakhchivan. Along with art images of people's artists and famous people, family paintings created with love and respect are also presented here. Here we can mention the paintings "National Leader", "Compositional Image of Hussein Javid", "Midhat", "Jalil Mammadguluzadeh", "Jalil Mammadguluzade and His Son Anvar", "Azim Azimzade", "My Father and Mother", "My Sister Zeynab", "Veli Bibioglu", "My Leyla" and others.

**Keywords:** *Husseingulu Aliyev, portrait, Nakhchivan, artist.*

**Фатма Шахбазова**

## ХУДОЖЕСТВЕННЫЕ ХАРАКТЕРИСТИКИ ПОРТРЕТНЫХ ПОЛОТЕН ГУСЕЙНГУЛУ АЛИЕВА

В статье освещается творчество Гусейнгулу Алиева, одного из выдающихся художников Нахчывана, охватывающее более чем сорокалетний период, разнообразное по тематике и жанрам. Конечно же, закономерно, что большую часть в этом многообразии составляют произведения, посвященные Нахчывану. Наряду с художественными образами народных артистов и известных людей, здесь представлены и семейные картины, созданные с любовью и уважением. Здесь можно упомянуть картины «Национальный лидер», «Композиционный образ Гусейна Джавида», «Мидхат», «Джалил Мамедгулузаде», «Джалил Мамедгулузаде и его сын Анвар», «Азим Азимзаде», «Мой отец и мать», «Моя сестра Зейнаб», «Вели бибиоглу», «Моя Лейла» и другие.

**Ключевые слова:** *Гусейнгулу Алиев, портрет, Нахчыван, художник.*

*(Sənətşünaslıq üzrə elmlər doktoru Sevil Sadıxova tərəfindən təqdim edilmişdi)*

**Daxiloma tarixi: İlkin variant 22.01.2025**
**Son variant 17.02.2025**